# Jurnalistlər də hazırdır

Azərbaycan İdman Jurnalistləri Assosiasiyası "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsi (BAOƏK) ilə sıx əlaqə saxlayır. Təşkilat Komitəsində rəsmi görüşlərimiz də olub. Oyunların yüksək səviyyədə baş tutması üçün bütün işlər vaxtında görülüb.

Bakı Olimpiya Stadionu əyləncə və idmanın həyatda bir dəfə yaşanacaq nümayişi ilə parlaq şəhərin bütün mədəniyyət və tarixini sərgiləməyə hazırdır. Birinci Avropa Oyunlarının Açılış Mərasimi iyunun 12-də, yerli vaxtla axşam saat 9-da başlayacaq. Mərasim az.baku2015.com saytında və bütün dünyada canlı nümayiş olunacaq.

Birinci Avropa Oyunlarında qitənin 49 ölkəsindən altı min idmançı 20 idman növü üzrə, o cümlədən atletika, badminton, boks, avarçəkmə, karate, suya tullanma, qılıncoynatma və digər yarışlarda medallar uğrunda mübarizə aparacaq.

"Bakı-2015"in rəsmi saytında və mobil tətbiqetməsinə onlardan hər biri barədə müfəssəl məlumat verilib. Burada idmançının ləqəbi, məşğuliyyəti və böyük yarışlarda qazandığı rekordlar barəsində də ətraflı məlumata yer verilib.

Bu idmançılar arasında əlli doqquzu qızıl medal sahibi olmaqla ümumilikdə 150 Olimpiya medalçısı, 200-ə yaxın Dünya çempionu var. Odur ki, belə tədbirlərdə ilk dəfə çıxış edəcək idmançıları birinci Avropa Oyunlarının çempionu titulunu əldə etmək uğrunda böyük rəqabət gözləyir.

"Bakı-2015" Avropa Oyunlarına daxil edilən 20 idman növündən 16-sı Olimpiya proqramına daxildir. Bunlardan da 12-də idmançılar 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq imkanı əldə edəcəklər. Onlar yarışacaqları idman növündən asılı olaraq ya birbaşa vəsiqə qazanacaqlar, ya Rio-2016-nın kvota yerlərindən birinə sahib olmaq üçün ölkələr adına reytinq xalı əldə edəcəklər, ya da Rio-2016-nın təsnifat yarışlarında iştirak hüququna yiyələnəcəklər.

BAOƏK Mətbuat Əməliyyatları Şöbəsinin direktoru xanım Ceyn Pirs və Mətbuat Əməliyyatları rəhbəri xanım Loreyn Rolston AİJA nümayəndələri ilə görüşdə jurnalistlərin akkreditəsi, onların rahat işləmələri üçün yaradılan şərait, bu sahədə həyata keçirilən tədbirlər və bundan sonra görüləsi işlər barədə məlumat veriblər. Qeyd ediblər ki, bugünədək "Bakı-2015" Avropa Oyunlarında 1600 nəfərdən artıq media mənsubu rəsmi akkreditasiyadan keçib. Onların təqribən yarısı yerli jurnalistlərdir.

Kütləvi informasiya vasitələrini təmsil edən qeydiyyatdan keçmiş yerli və əcnəbi jurnalistlər, video operatorlar, fotoreportyorlar xüsusi yayım hüququna malik media orqanlarının çəkiliş apardıqları məkanlara buraxılmasalar da, onlar üçün xüsusi ayrılmış yerlərdə kiçik müsahibələr götürmələri, görüntüləri qeydə almaları üçün normal şərait yaradılacaq.

"Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsi yarışları izləyəcək jurnalistlər üçün Azərbaycan və ingilis dillərində bir sıra maraqlı nəşrlər - broşürlər, kitabçalar, vərəqələr də hazırlayıb. Akkreditə olunan KİV əməkdaşlarının, müstəqil fəaliyyət göstərən yazarların, fotoreportyorların hər birinə "Bakı-2015" Avropa Oyunları Media Bələdçisi" paylanır. Kitabçanın ilk səhifəsində Azərbaycan Respublikası gənclər və idman naziri "Bakı-2015" birinci Avropa Oyunlarının baş icraçı direktoru Azad Rəhimovun müraciəti dərc olunub. Azad müəllim qeyd edir ki, "ilk Avropa Oyunlarının keçirilməsi şərəfi Azərbaycana nəsib olmuşdur və mən beynəlxalq mətbuat nümayəndələrini ölkəmizin tarixində ən böyük idman tədbirinə dəvət etməyə çox şadam". Daha sonra baş icraçı direktor göstərir: "Oyunların beynəlxalq mətbuatda işıqlandırılması bu möhtəşəm tədbirin bütün dünya izləyicilərinə çatdırılmasında mühüm rol oynayır. Buna görə də bizim borcumuz və arzumuz mətbuat nümayəndələrini Avropa Oyunları haqda sözlü-şəkilli hekayələr yaratmaları üçün tələb olunan bütün vasitələrlə təmin etməkdən ibarətdir".

Təşkilat Komitəsi "Bakı-2015" birinci Avropa Oyunlarının ən yüksək səviyyədə təşkili məqsədilə planlı şəkildə çalışır, atletlərin, izləyicilərin, azarkeşlərin, KİV nümayəndələrinin bu tarixi idman hadisəsindən, sözün əsl mənasında, zövq almaları üçün mümkün olan ən gözəl imkanlarla təmin olunmalarını gerçəkləşdirir.

İyunun 12-də Bakı Olimpiya Stadionunda "Bakı-2015"in möhtəşəm Açılış Mərasimi gerçəkləşəcək, ölkəmizin milli mədəniyyəti, paytaxtımızın müasir Avropadakı əhəmiyyətli yeri təntənəli surətdə tərənnüm olunacaq. Dimitris Papaioannounun bədii rəhbəri olduğu mərasimdə 2 mindən çox səhnə iştirakçısı sehrli şou nümayiş etdirəcək.

**Eldar İSMAYILOV,**
**AİJA prezidenti,**
**Avropa İdman Mətbuatı İttifaqı AİPS EUROPE/UEPS İcraiyyə Komitəsinin üzvü,**
**Əməkdar jurnalist.**